BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 05 (05) MART (MART) 2006

# ŞİƏ KƏLAM ELMİNİN ORTAYA ÇIXMASI VƏ İNKİŞAFI

*Dr. Adilə Tahirova*[1]

**Summary**

**The beginning and the development of Shia's theology, information about the first theologians, the stages of the development and two different currents existing in Shiism: Usulism and Akhbarism is informed in this article. These currents are differ according to their basic methods. One of the currents - Usulism is considered to be the supporter of innovation and rationalism, another current – Akhbarism, as the supporter of traditions. The works of the first theologians probably aren't able to be considered systematical. But they brought their contribution to the history of theology's (Калам) development. The article has an important meaning on studying the history of the Shia Kalam from the beginning of its foundation. The article has a necessary role in teaching the Kalam by the theologian-teachers and it will be used as scientific material.**

Şiə kəlam elminin ortaya çıxmasından bəhs etmədəm əvvəl Şiə kəlməsinin lüğət və termin mənalarından, məzhəbin təşəkkülündən qısaca söz etmək yerinə düşər. "Şiə" kəlməsi lüğətdə tərəfdar, firqə, topluluq, birinə uyan, tabe olan mənalarına gəlir. Bu söz eyni zamanda tək, cəm, müzəkkər və müənnəs üçün də istifadə olunmaqla birlikdə "Şiə" kəlməsinin cəmi olaraq "şiyəun", "əşyaun" da işlədilir.[2] Şiə, termin olaraq Həzrət Əlinin (ə.s.) nass və təyinlə Həzrət Peyğəmbərin xəlifəsi və insanların İmamı olduğunu qəbul etməkdir.[3] Şiəliyin ortaya çıxmasının tarixi haqqında Şiə qaynaqların

---

[1] BDU İlahiyyat Fakultəsi Kəlam Müəllimməsi.
[2] Zəbidi, *Tac əl-Arus*, Beyrut 1984, XXI/301 və davamı; İbn Mənzur, *Lisan əl-Arab*, Beyrut 1994, VIII/188; Raqib əl-İsfahani, *Müfrədatu Əlfaz əl-Quran*, Beyrut 1997, s. 470; Baranov, *Arabsko-Russkiy Slovar*, Moskva 1985, s. 425.
[3] Cəfər Sübhani, *Buhus fil-miləl vən-nihəl*, Qum 1413, VI/7.

verdiyi məlumata əsasən bu məzhəb Həzrət Peyğəmbər dövründən mövcud olmuşdur.[4] İmamətin dini mətnlərə dayanaraq təyinlə[5] reallaşdığı qəbul edildiyi üçün məzhəbin tarixi Peyğəmbər dövrünə qədər uzadılır. Ancaq bir məzhəb olaraq Şiəliyin tam təşəkkülü üçün on iki İmamın gəlməyi lazımdır. Qaybəti Suğra dönəmi isə 260/874-cü ildə başlanmışdır.[6] Burada sözün termin mənasından deyil, lüğət mənasından hərəkət edilməlidir. Şiə qaynaqlarda keçən rəvayətlərə görə tərəfdar mənasında ilk Şiə dörd sahabədən ibarət idi: Salman Farisi (34/655), Miqdad ibn əl-Əsvəd, Əbu Zərr (32/653), Ammar ibn Yasir.[7] Erkən dövrdə ortaya çıxdığı qəbul edilsə belə tam formalaşmanın müəyyən zaman aldığını söyləmək daha məqbul görünür.[8]

Şiə kəlamının ortaya çıxmasından bəhs etməzdən əvvəl kəlam elminin mövzusuna nəzər salaq. Kəlam Allahın zatından və sifətlərindən (atributlarından), nübüvvət və risalətə aid məsələlərdən, məbdə və məad etibariylə yaradılmışların hallarından İslam prinsiplərinə görə bəhs edən bir elmdir.[9] Kəlam elmi ilk dəfə II/VII əsrdə Mötəzilə mənsubları tərəfindən inkişaf etdirilmişdir.[10] Şiəlikdə kəlami məsələlər haqqında ilk əsər verən kimsənin İsa İbn Ravza olduğuna dair məlumatlar mövcuddur. Onun imamət haqqında eseri olduğundan mənbələrdə bəhs olunur.[11] Şiəlik haqqında ilk münazirə edən kimsənin Kümeyt İbn Zeyd (v. 126/744) olduğu bəzi

---

[4] Fazl İbn Şazan ən-Nisaburi, *əl-İzah*, Tehran 1390, s. 476; Abdullah Fəyyaz, *Tərixul-İmamiyyə*, Beyrut 1975, s. 35 və davamı.

[5] Əllamə Hilli, *əl-Bab əl-Hadiyə Aşər*, s. 43; Sübhani, *Buhus fil-Miləl vən-Nihəl*, VI/43; Müzəffər, *Aqaid əl-İmamiyyə*, s. 74; Fəyyaz, *Tərix əl-İmamiyyə və Əsləfihim minəş-Şiə*, s. 27; Şərif əl-Murtaza, *Rəsail əş-Şərif əl-Murtaza*, III/20.

[6] Ədhəm Ruhi Fığlalı, *Çağımızda Etiqadi İslam Məzhəbləri*, s. 145.

[7] Məclisi, *Bihar əl-Ənvar*, IV/451, VIII/44, 123, XXXIX/11, 106; Amili, *Ayan əş-Şiə*, I/18, 133; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam*, s. 351; Növbəxti, *Fıraq əş-Şiə*, s. 17; Əli İbn Əbu Talib, *Nəhc əl-Bəlağa*, s. 183; Qaşani, *İlm əl-Yəqin fi Usul əd-Din*, II/743; Strothmann, "Şia", *İA,* XI/502.

[8] Mənai, *Usul əl-Əqidə beynə əl-Mutəzilə və əş-Şiə əl-İmamiyyə*, s. 51; Nəşşar, *Nəşətu əl-Fikr əl-Fəlsəfi fil-İslam*, II/34.

[9] Cürcani, *Kitab ət-Tərifat*, s. 185.

[10] Topaloğlu, *Kəlam Elmi (Giriş)*, s. 47.

[11] Nəcaşi, *Rical*, II/145, No. 794; Sədr, *Təsisu əş-Şiə*, s. 350; Amili, *Əyan əş-Şiə*, I/134.

qaynaqlarda keçir.[12] Əqaidə dair ilk əsər təlif edən kimsənin Əli İbn İsmayıl İbn Meysəm ət-Təmmar (v. 179/795) olduğu bilinir. Şiə kəlamının ortaya çıxmasında rolu olan şəxslərdən bəzilərinin adlarını çəkmək yerinə düşər. Cəfər əs-Sübhani, Həsən əs-Sədr, Möhsün əl-Emin əl-Amilinin təsniflərini əsas alaraq II/VIII. əsrdə yaşamış Şiə kəlamçılardan bəziləri bunlardır:

Bunlardan biri olan Zürarə İbn Əyunun (150/767) kəlamçı, fəqih, şair, ədəbiyyatçı olduğu rəvayət olunur. Nəcaşi onun İstitaət və cəbr haqqında kitabından bəhs edir.[13] Hicri II əsrin diqqətə dəyər şəxsiyyətlərindən biri olan Məhəmməd ibn Əli ibn Numan əl-Bəcli, Mumin ət-Taq və ya müxaliflərinin adlandırdığı kimi Şeytan ət-Taq ləqəbi ilə tanınmışdır. Nəcaşi onun *Kitab əl-İhticacat fi imaməti Əmir əl-Muminin* kitabının adını əsərində zikr etmişdir.[14] Başqa bir önəmli sima da Hişam ibn Hakəmdir (v. h. 199/ m. 815). Onun imamət mövzusundan bəhs edən (təmas edən) ilk şəxs olduğu söylənilir. Əvvəlcə Cəhm ibn Safvanın görüşlərini mənimsəmişdir. *Kitəb əl-İmamə, Kitəb ət-Tauhid (Tövhid, Tohid), Kitəb ər-Rədd alə'z-Zənadiqa, Kitəb fi İmaməti əl-Məfdul, Kitəbu İxtiləfi ən-Nəs fi'l-İmamə, Kitəb əl-Mərifə* və başqa əsərlərin adlarını Nəcaşi çəkir.[15]

Hicri II əsrdə yaşamış kəlamçılardan biri də Qeys əl-Masırdır. Bu şəxs, Şiənin mötəbər hədis külliyatından birincisi olan Kuleyninin "Kafi" adlı əsərində dövrünün ən yaxşı kəlamçısı olaraq mədh edilən Qeys əl-Masır, Cəfər əs-Sadiqin halqasında iştirak edib. Hətta kəlam elmini Əli ibn Hüseyndən öyrəndiyi rəvayət edilir.[16]

---

[12] Sədr, *Təsisu əş-Şiə*, s. 351; Amili, *Əyan əş-Şiə*, I/133.

[13] Geniş məlumat üçün bax: Tusi, *Fihrist,* Beyrut 1983, s. 104, No. 314; İbn Nədim, *Fihrist*, Beyrut 1994, s. 272, Nəcaşi, *Rical*, I/397, No. 461; Amili, *Əyan əş-Şiə*, I/133.

[14] Tusi, *Fihrist,* s. 162, No. 595; İbn Nədim, *Fihrist*, s. 218, Nəcaşi, *Rical*, II/203, No. 887; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam*, s. 358; Amili, *Əyan əş-Şiə*, I/134.

[15] İbn Nədim, *Fihrist*, s. 217; Tusi, *Fihrist,* s. 207; Nəcaşi, *Rical*, II/397, No. 1165; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam*, s. 360; Amili, *Əyan əş-Şiə*, I/134; Əli Sami ən-Nəşşar, *Nəşətu əl-Fikr əl-Fəlsəfi fil-İslam*, II/169 və davamı, 198 və davamı.

[16] Kuleyni, *Usul əl-Kafi*, I/171; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam*, s. 358; Amili, *Əyan əş-Şiə*, I/134.

Hicri ikinci əsrin ortalarında həm kəlamçı, həm də mühəddis olaraq tanınan başqa bir ad da Əbu Malik əl-Hadramidir. Onun tövhidə dair bir əsəri olduğundan bəhs edilir.[17]

Daha çox Tatari ləqəbiylə məşhur Əli ibn Həsən ibn Məhəmməd ət-Tai fəqih və mühəddis olaraq tanınmaqla bərabər onun *Tövhid, İmamət, Qaybət, Vəlayət* adlı əsərlərini də nəzərə alaraq kəlamçı olduğunu söyləmək mümkündür.[18]

Hicri ikinci əsrdə yaşamış başqa bir kəlamçı da Hadid ibn Hakim sayıla bilər. Hətta onun Cəfər əs-Sadiq və Musa əl-Kazımın tələbələrindən olma şərəfinə nail olmuşdur.[19]

O dövrdəki kəlam elminin necə inkişaf etdiyini görmək üçün hicri üçüncü əsrdə də yaşamış Şiə kəlamçılardan bəziləri haqqında məlumat vermək yerinə düşər. Cəfər əs-Sübhani onları belə sıralayır.[20]

Tabaqat kitablarında mütəkəllim və fəqih olaraq tanıdılan Fadl ibn Şazan ibn Xəlil əl-Əzdi ən-Nisaburi (260/874), eyni zamanda əl-İzahı yazan şəxsdir. Yüz səksən kitabının olduğu söylənilir. Bunlardan kəlam elmi baxımından önəm daşıyanlarından bəziləri bunlardır: *Kitəb əl-Vaid, Kitəb əl-İstitaa, Kitəb əl-İman, Kitəbu İsbat ər-Ric'ə* və s.[21]

Bəsrəli olan Hakəm ibn Hişam ibn əl-Hakəm kəlam elmi ilə məşhur olub kəlami mövzularda elmi mübahisələr etdiyi bilinir. İmamət haqqında kitabı olduğundan bəhs olunur. Hicri ikinci əsrin sonu üçüncü əsrin əvvəlləri yaşamışdır.[22]

Məhəmməd ibn Məmluk əl-İsbahaninin qədər mövzularını yaxşı bildiyi və əvvəllər Mötəzilədən olduğu bilinir. Müəllimi Əbdürrəhman ibn Əhməd ibn Cəbraveyh sayəsində şiəliyə dönmüşdür. *Kitəb əl-Cami fi sairi Əbvab əl-Kəlam, Kitəb əl-Məsail və'l-Cəvabat fi'l-İmamə, Kitəbu Məcalisih məa Əbu Əli əl-Cübbai* adlı kitabları var.[23]

---

[17] Nəcaşi, *Rical*, I/451, No. 544; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam* , s. 362; Amili, *Əyan əş-Şiə*, I/134.
[18] Nəcaşi, *Rical*, II/77, No. 665.
[19] Nəcaşi, *Rical*, I/148, No. 383; Cəfər əs-Sübhani, *Buhus fil-Miləl vən-Nihəl*, VI/580.
[20] Cəfər əs-Sübhani, *Buhus fil-Miləl vən-Nihəl*, VI/581.
[21] Tusi, *Fihrist,* s. 154, No. 564; Nəcaşi, *Rical*, II/168, No. 838.
[22] Nəcaşi, *Rical*, I/328, No. 349.
[23] Nəcaşi, *Rical*, II/297, No. 1034.

Hicri üçüncü əsrdə yaşamış İsmayıl ibn Məhəmməd ibn İsmayıl ibn Hilal əl-Məhzuminin də tabaqat kitablarında bildirildiyinə görə *Kitəb ət-Tauhid, Kitəb əl-İmamə* adlı əsərləri var.[24]

Əbu İsa əl-Vərraq Məhəmməd ibn Harunun (v. 247/861) da *Kitəb əl-İmamə, əl-Maqalat* və başqa əsərlərindən bəhs olunur.[25]

Kufəli olub Bağdadda yaşamış Əli ibn Mənsur da kəlamçı olaraq bilinir. Onun bir çox kitabının olduğu söylənsə də onlardan sadəcə birinin adından söz edilir. Bu da *Kitəb ət-Tədbir fi't-Tauhid və'l-İmamə* adlı əsərdir.[26]

Əli ibn İsmayıl ibn Şuayb ibn Meysəm ibn Yəhya ət-Təmmar (v. 179/795) əslən Kufəli olub Bağdadda yaşayan kəlamçıdır. Mötəzilə kəlamçılarından Əbu Hüzeyl (v. 235/850) və Nazzam (v. 231/846) ilə kəlami mövzularda müzakirələri (mübahisələri) olduğu qaynaqlarda keçir. Öz müstəqil məclisi də olan bu şəxs İmamiyyədə ilk kəlamçı şəxs olaraq tanınır. *Kitəb əl-İmamə, Kitəbu Məcalisi Hişam ibn Hakəm* və başq əsərləri vardır.[27]

İsmayıl ibn Əli ibn İshaq ibn Əbu Səhl ibn Növbəxt (v. 311/923-924) öz dövrünün mütəkəllimlərinin şeyxi olaraq xarakterizə edilmişdir. *Kitəb ət-Tauhid, Məcalisuh məa Əbu Əli əl-Cübbai, Kitəb fi'stihaləti Ruyəti'l-Qadim, Kitəb hudus əl-aləm* adlı əsərləri ilə birlikdə imamət, tövhid, cisimlərin qədimliyi kimi mövzularda Əbu əl-Atahiyyə, İbn Ravəndi, Əbu İsa əl-Vərraq və başqa şəxslərə rəddiyyələri və tənqidlərindən də mənbələrdə bəhs olunur. Bütün bu əsərlərdə əqli mühakimələrə özündən əvvəl yaşamış alimlərdən daha çox baş vurduğu görülür. İbn Nədim də onun Şiənin öndə gedən kəlamçılarından olduğunu qeyd edir.[28]

Şeyx Saduqun qardaşı olan Hüseyn ibn Əli ibn Hüseyn ibn Musa ibn Babəveyh (Babuyah) mühəddis olsa da əsərlərində kəlami mövzulara da toxunmuşdur. *Kitəb ət-Tauhid* və *Nəfyu't-Təşbih* adlı əsərlərinin olduğu söylənilir.[29]

---

[24] Nəcaşi, *Rical*, I/120, No. 66.
[25] Nəcaşi, *Rical*, I/120, No. 1017.
[26] Nəcaşi, *Rical*, II/71, No. 656.
[27] İbn Nədim, *Fihrist*, s. 217; Nəcaşi, *Rical*, II/72, No. 659; Sadr, *Təsis əş-Şia li Ulum əl-İslam*, s. 353; Cəfər əs-Sübhani, *Buhus fil-Miləl vən-Nihəl*, VI/586; Amili, *Əyan əş-Şiə*, I/134.
[28] İbn Nədim, *Fihrist*, s. 219; Nəcaşi, *Rical*, I/121, No. 67.
[29] Nəcaşi, *Rical*, I/189, No. 161.

Hicri dördüncü əsrin başlarının mütəkəllimlərindən olan Məhəmməd ibn əl-Qasım əl-Bağdadinin *Kitəb fi'l-Ğaybə* adlı əsərinin adı bilinir. 258/872-ci ildə dünyaya gəlib və 338/950-ci ildə vəfat etmişdir.[30]

Məhəmməd ibn Əbdülməlik ibn Məhəmməd ət-Taban (v. 419/1028) əvvəlcə Mötəziləyə mənsub olub sonra Şiəliyə keçmişdir. *Kitəb fi'l-Madum* və başqa əsərləri var.[31]

Kəlamçı olaraq bilinən Məhəmməd ibn Əbdürrəhman ibn Qubbəh də əvvəlcə Mötəzilədən olub sonradan Şiəliyə intisab edənlər arasında yer alır. *Kitəb əl-İnsaf fi'l-İmamə, Kitəb ər-Rədd alə'z-Zeydiyyə, Kitəb ər-Rədd alə Əbu Əli əl-Cubbai* və başqa əsərlərinin adları qaynaqlarda keçir.[32]

Əli ibn Vasif ən-Naşi (v. 365/976) də mütəkəllimdir. Şiə kəlam elminin formalaşmasında xüsusi rolu olan Növbəxtilər ailəsinin bir nümayəndəsi olan Əbu Səhl İsmayıl ən-Növbəxtidən kəlam elmi sahəsində dərslər almışdır. İmamətə aid əsəri olub dövrünün parlaq simalarından olduğu mənbələrdə keçir.[33]

Əl-Cübbai (v. 303/916), Bəlhi (v. 319/931) və Əbu Cəfər əl-Qubbəhin müasiri olan Həsən ibn Musa ən-Növbəxti, hicri III əsrin sonu və hicri IV əsrin başında yaşamış dövrünün məşhur kəlamçılarından sayılır. Əbu Səhl ən-Növbəxti onun dayısıdır. Çox sayda əsərləri arasında xüsusi önəm daşıyanı günümüzə qədər gəlib çıxmış *Fıraq əş-Şia*dır.[34] *Kitəb əl-Cami fi'l-İmamə, Kitəb ət-Tauhid əl-Kəbir, Kitəb ət-Tauhid əs-Sağır, Kitəb əl-Ərzaq və'l-Acal və'l-Əs'ar, ər-Rədd alə Əshab əl-Mənzilə beynə'l-Mənziləteyn fi'l-Vaid, ər-Rədd alə əshab ət-Tənasuh, ər-Rədd alə'l-Mücəssəmə, ər-Rədd alə'l-Ğulat* adlı kəlam elminə aid əsərləri ilə başqa sahələrdə də kitablar yazdığından bəhs olunur.[35]

Yuxarıda adları keçən şəxslərdən Şiə qaynaqlarda Şiə kəlam elminin qurucuları olaraq bəhs edilsə də Hişam ibn Hakəm, Mumin ət-Taq, Hişam

---

[30] Nəcaşi, *Rical*, II/298, No. 1036.
[31] Nəcaşi, *Rical*, II/333, No. 1070.
[32] İbn Nədim, *Fihrist*, s. 219; Nəcaşi, *Rical*, II/105, No. 1024.
[33] Tusi, *Fihrist,* s. 119, No. 385; Nəcaşi, *Rical*, II/105, No. 385.
[34] Ethem Ruhi Fığlalı, Önsöz, *Mezhepler Arasındakı Farklar* (Abdülkahir el-Bağdadi), Ankara 2001, Türkiye Diyanet Vakfı Yayınları, s. XX.
[35] Tusi, *Fihrist,* s. 75; Nəcaşi, *Rical*, I/179, No. 146; İbn Nədim, *Fihrist*, s. 220; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam* , s. 369; Amili, *Əyan əş-Şiə*, I/135.

ibn Salim, Əli ibn Mənsur kimi şəxslər müxalifləri tərəfindən təşbih, təcsim, tənasüh və hətta mülhidliklə ittiham edildiklərini də söyləmək lazımdır.[36] Əlbəttə ki tarixdə ilhadla ittiham etmə (günahlandırma) hallarına çox rast gəlindiyini və bir çox hallarda bunların doğruluq payını araşdırmanın çox çətin olduğunu da söyləmək lazımdır. Belə ki bu ittihamlar əksər hallarda müxaliflər tarafindən səsləndirildiyi üçün obyektivliyinə şübhə ilə yanaşmaq, həqiqəti araşdırmaq üçün əgər günümüzə çatmış əsərləri varsa öz əsərlərinə, müxtəlif məzhəblərə mənsub müasirlərinin məlumatlarına, tarix mənbələrinə və müstəşriqlərin əsərlərinə də müraciət edilməlidir. Bütün bu araşdırmaların nəticəsiz qalma ehtimalı da böyükdür. Çünkü bu müəlliflərin ilhadi görüşləri haqqında məlumatlar başqalarının onlara nəsbətiylə bilinir, sözü gedən əsərlərin günümüzə çatmaması da işi çətinləşdirir. Bəzən bir müəllifin mülhid olaraq adlandırılması onun əsərlərində ilhadi görüşlərə yer verməsindən qaynaqlansa da bu fikirlər tənqid olunmaq üçün də verilə bilər. Yəni bu şəxs mülhid deyil, heresioqraf (ilhadi görüşləri araşdıran və onlara cavab verən şəxs) da ola bilər. Məsələn ilhadın simvolu halına gəlmiş İbn Ravəndinin belə mülhid deyil bu görüşlərə etirazlarını bildirən cavab verən şəxs olması ehtimalından söz edilir.

Şeyx Müfidin bu şəxslər haqqında görüşü belədir: "Hişam ibn Hakəm, Allahın adları və sifətlərinin mənaları mövzusunda Şiəliyə tamamilə zidd görüşləri olsa belə yenə Şiədir."[37] Şərif Murtaza isə Rəsail əş-Şərif adlı əsərində Hişam ibn Hakəm, Əli ibn Mənsur, Əli ibn İsmayıl ibn Meysəm, Yunis ibn Əbdürrəhman, İbn Səlim əl-Cəvaliqinin Allaha məkan və hərəkət izafə etdiklərini söyləyərək onların fikirlərini tənqid edir.[38]

Yuxarıda haqqında bəhs etdiyimiz bütün şəxslərin Şiə kəlam elminin ortaya çıxmasında və formalaşmasında rollarını nəzərə alaraq onları ilk kəlamçılar olaraq zikr etmək mümkündür. Şiə qaynaqlara əsasən artıq sistemləşməyə başlamış Şiə kəlamı hicri ikinci əsrin sonu, hicri üçüncü əsrin başlarında tədrici bir şəkildə ortaya çıxmışdır.[39] Əlbəttə ki kəlamı çox erkən dövrə - Hz. Peyğəmbər dövrünə- dayandıran mənbələrdən bəhs olunmur.

---

[36] Əli Sami ən-Nəşşar, *Nəşətu əl-Fikr əl-Fəlsəfi fil-İslam*, II/168 və sonrası, 198 və davamı.
[37] Şeyx Müfid, *Əvail əl-Maqalat*, IV/38.
[38] Şərif Murtaza, *Rəsail əş-Şərif əl-Murtaza*, III/281.
[39] Tabatabai, *əş-Şia fi'l-İslam*, s. 125.

Çünkü bu dövrdə etiqadi problemlər yox idi. Vəhy gəlməyə davam edirdi. Hər hansı bir məsələ ortaya çıxdıqda isə suallar Hz. Peyğəmbərə verilirdi. Ona görə kəlam elminin ortaya çıxmasını bu dövrə dayandırmaq doğru deyil. Ancaq digər qaynaqların və müstəşriqlərin məlumatlarına görə Şiə kəlamı daha gec tarixdə hicri dördüncü əsrdə ortaya çıxmışdır.[40] Şiə kəlamı tarixində əlimizdə olan ən qədim kitab Şeyx Saduqun (v. 381/991) kitabıdır. Buna görə Şiə kəlamının Mötəzilədən iki əsr sonra ortaya çıxdığını söyləyirlər.[41] Ancaq adlarını çəkdiyimiz şəxsləri, onların keçirdikləri münazirələri və İslam mədəniyyətinin zənginliyi yolundakı əməklərini nəzərə almadan sadəcə tarixdən günümüzə gəlib çatmış və bu günkü mənada sistemli şəkildə yazılmış kəlam kitabının təlif tarixi ilə Şiə kəlamının ortaya çıxma tarixini eyniləşdirmək doğru deyil. Təbii olaraq sistemli bir kəlam anlayışının ortaya çıxması üçün müəyyən bir zaman diliminin keçməsi lazımdır. Beləcə adları keçən şəxsləri və onların əsərlərini də bu inkişaf prosesi içində dəyərləndirərək onların da Şiə kəlam elminin təşəkkülü və formalaşması üçün oynadıqları rolu diqqətə almaq lazımdır.

Şiə kəlam tarixini dörd mərhələyə (dövrə) ayıra bilərik. Birinci mərhələ on iki İmamın yaşadığı dövrdür. On iki İmamdan sonra dörd naib gəlmişdir. Sonuncu naib Əli əs-Samarri 329/940-cı ildə vəfat etmişdir. Bu tarix eyni zamanda "Kafi" adlı hədis külliyyatını meydana gətirən Məhəmməd ibn Yaqub əl-Kuleyninin vəfat tarixidir. Buna görə birinci mərhələni bu tarixə qədər uzada bilərik. Bu dövrdə Şiə kəlam elminin inkişafı baxımından xüsusi rolu olan şəxslərdən Hişam ibn Hakəm (v. 190/805), Həsən ibn Musa ən-Növbəxti (v. 300-310/912-922 illəri arasında), Əbu Səhl İsmayıl ibn Əli ən-Növbəxti (v. 311/923-24) və Əbu İshaq ən-Növbəxtinin (v. 350/961) adları çəkilə bilər.

Şiə kəlam elminin ortaya çıxmasından bəhs edərkən Növbəxtilər ailəsinin oynadığı böyük rolu xüsusilə ifadə etmək lazımdır. Bu məşhur ailədən bir çox kəlamçı və fəlsəfəçilər çıxmışdır.[42] Ancaq Həsən ibn Musanın *Fıraq əş-Şiə* adlı əsəri xaric onların əsərləri günümüzə çatmamışdır. Şeyx Müfidin əsərlərində də Növbəxtilərin bəzi görüşlərinə rast gəlmək mümkündür.

---

[40] Adam Mez, *İslamın Kalkınma Çağı*, s. 60.
[41] Mənai, *Usul əl-Əqidə beynə'l-Mutəzilə və'ş-Şiati'l-İmamiyyə*, s. 450.
[42] Cəfər əs-Sübhani, *Buhus fil-Miləl vən-Nihəl*, VI/593.

İkinci mərhələ, əl-Qaybət əl-Kübradan Nasıruddin ət-Tusiyə qədər (v. 672/1273) olan dövrü əhatə edir. Bu dövrdə Şeyx Saduq (v. 381/991), Seyid Şərif Razi (v. 406/1085), Şeyx Müfid (v. 413/1022), Seyid Şərif Murtaza (v. 436/1044), Əbu Cəfər ət-Tusi (v. 460/1067), Fazl ət-Tabərsi (v. 552/1153) kimi Şiə tarixinə adları qızıl hərflərlə yazılmış şəxsiyyətlər vardır. Hər nə qədər Şeyx Saduq din məsələləri haqqında münaqişə etmənin doğru olmadığını, kəlamçılara qarşı o qədər də müsbət sayılmayacaq münasibətini ifadə etsə də[43] onun *əl-İtiqadat* adlı əsəri şiə əqidəsiylə bağlı günümüzə qədər çatan ilk əsər olması baxımından şiə kəlamına etdiyi xidmət misilsizdir. Əslində sistematik şiə kəlamına aid əsər vermə dövrü Əbu İshaq ən-Növbəxti (v. 350/961) ilə başlamışdır. Sonra Nasıruddin ət-Tusi ilə zirvəyə çatmışdır.

Üçüncü mərhələ Nəsrəddin Tusidən sonra Mir Damadla (v. 1041/1631) İsfahan məktəbinin quruluşuna qədər olan dövrü əhatə edir. Bu dövrün ən məşhur adları olan Mutahhar Hilli (v. 726/1326) və Feyz Qaşani, Nasıruddin ət-Tusi məktəbinin davamçıları idilər.

Dördüncü mərhələdə Mir Damad (v. 1041/1631), Molla Sadra Şirazi (v. 1050/1640) və onun tələbələrindən Əhməd Ələvi, Muhsin Feyz (v. 1091/1680), Əhməd Ahsui (v. 1241/1826) Qazı Səid Qumminin adları qeyd edilə bilər. Dördüncü dövr günümüzə qədər uzanan dövrdür.[44]

Şiə kəlamının tarixi inkişafına nəzər yetirərkən bəhs edilməsi zəruri olan başqa bir məsələ də əsasən metod baxımından bir-birindən fərqlənən iki məktəb-əxbərilik və üsulilikdir. Biricisini mühafizəkar, ikincisini isə yenilik tərəfdarı kimi xarakterizə edə biləcəyimiz bu iki məktəb arasındakı fərqlərə gəlincə bunlardan bəzilərini belə sıralamaq mümkündür:

1. Üsuli məktəb bu qaynaqları əsas alır: Qurani Kərim, sünnət və ağıl.[45] Əxbəri məktəb isə Quranı Kərim və sünnəti qaynaq qəbul edir.[46]

---

[43] Şeyx Saduq, *Risalətu əl-itiqadat əl-İmamiyyə (Şii İmamiyyenin İnançEsasları)*, tərcümə edən Ethem Ruhi Fığlalı, Ankara 1978, s. 42-43.

[44] Cəfər əs-Sübhani, *Buhus fil-Miləl vən-Nihəl*, VI/575-596; Sadr, *Təsis əş-Şiə li Ulum əl-İslam*, s. 353-402.
Mərhələlər haqqında məlumat üçün bu mənbələrə bax. Şerafeddin Gölcük, *Kəlam Tarihi*, IV nəşr, İstanbul 2000, s. 47-49; Henri Corbin, *Historie de la Philosophie Islamigue*, Paris 1964, s. 54-57 (Şərafəddin Gölcükdən nəqlən).

[45] Hüseyn Müdərrisi, "Rationalism and Traditionalism in Shi'i Jurisprudens: A Preliminary Survey", *Studia Islamica*, LIX/141; Qaravi, *Masadır əl-İstinbat beynə əl-Usuliyyin vəl-əxbariyyin*, s. 39.

2. Üsulilərə görə Qurani Kərim və sünnət ağıl vasitəsiylə anlaşılır. Əxbərilərə görə Qurani Kərim və sünnəti anlamanın tək yolu, İmamların gətirdikləri izah və açıqlamalardır.[47]

3. Üsuli görüşə görə dəlil qəbul edilən dörd qaynaq əsərdə güvənilməyən bir çox hədis və xəbərlər var. Əxbəri anlayışa görə bu dörd əsər tamamilə səhihdir.[48]

4. Üsulilərdə əqli qaynaqdan gələn məlumatlarla nəqli qaynaqdan gələn məlumatlar ziddiyət təşkil etdiyi təqdirdə nəqli dəlil tərcih edilir və ağılla hökm verilir. Əxbərilərə görə nəql və nəqlə dayanan məlumatlar ağıl və əqlə istinad edən məlumatlardan üstündür.[49]

5. Üsulilərə görə yalnız yaşayan müctəhidlər mərcii təqlid ola bilər. Əxbərilərə görə ölən müctəhidlərin də fikir və qənaətlərindən faydalanmaq mümkündür.[50]

6. Üsuli görüşə görə müctəhid xəta etsə də savab alır. Əxbərilər güvənilən bir qaynağa istinad etmədən hökm və fetva vermənin günah olduğu qənaətindədirlər.[51]

Üsulilər ictihada, müstəqil düşüncəyə dayandıqları halda Əxbərilər təqlidə və xəbərlərə daha çox istinad edirlər. Əxbərilər din adamlarının siyasətə qarışmalarına razı deyil. Üsulilər isə ortaya çıxacaq qaib imamın işlərini asanlaşdırmaq və hazırlıq işləri görmək üçün din adamlarının dövlət və siyasətlə yaxından əlaqəli olmalarını müdafiə edirlər. Mərcii təqlid[52] mövzusunda vəlayətu əl-fəqih nəzəriyyəsi də bu düşüncənin məhsuludur.

---

[46] Qaravi, *Masadır əl-İstinbat beynə əl-Usuliyyin vəl-əxbariyyin,* s. 211.

[47] Bəhrani, *əl-Hədaiq ən-Nadira fi əhkami itra ət-tahira*, I/27-34; Qaravi, *Masadır əl-İstinbat beynə əl-Usuliyyin vəl-əxbariyyin,* s. 87.

[48] Qaravi, *Masadır əl-İstinbat beynə əl-Usuliyyin vəl-əxbariyyin,* s. 111 və davamı.

[49] Nemətullah Cəzairi, *əl-Ənvar ən-Numaniyyə*, III/128-133; Bəhrani, *əl-Hədaiq ən-Nadira fi əhkami itra ət-tahira*, I/125.

[50] Cəzairi, *əl-Ənvar ən-Numaniyyə*, III/368.

[51] Qaravi, *Masadır əl-İstinbat beynə əl-Usuliyyin vəl-əxbariyyin,* s. 65-71. Əxbəriliklə bağlı müstəqil əsərlərdən biri budur: Məzlum Uyar, *İmamiyye Şiasında Düşünce Ekolleri Ahbarilik*, Kitabevi, İstanbul -2000.

[52] İmam Xomeyni, *Təvzih əl-məsail*, s. 17 vd.

Bu məktəblərin tarixi inkişafına nəzər yetirək. Hicri III/miladi IX əsrdə əxbəriliyin mərkəzi Kufədən Qum şəhərinə keçmişdir.[53] Qaybəti suğra dövründən sonra (260/874) [54] əxbəri məktəbi hakim mövqedə idi. Hicri IV/miladi X əsrin sonları, hicri V/miladi XI əsrin başlarında üsuli məktəb Şeyx Müfid və Şərif Murtazanın əsərləri ilə canlandı. [55]

Hicri IV/miladi X əsrin ikinci yarısında əxbərilərin ən əsas nümayəndələri Şeyx Saduq (381/991) idi.[56] İmamiyyə Şiəsi İmamlardan gələn rəvayətlərə çox bağlı olduğu üçün başlanğıcda xaricə qapalı və yeni şərhlərə açıq olmayan ənənəvi bir yol izləyirdi. Səfəvilər dövründə dövlətin rəsmi məzhəbi olduqdan sonra elmi inkişaf və yeni fikirlərlə qarşılaşdıqda yalnız rəvayətlər problemlərin həlli üçün yetməməyə başladı. Bu zaman yeniliklərə açıq, sərbəst fikirlərə də əhəmiyyət verən, ağıl və əqli araşdırmalar üstünə qurulmuş bir cərəyan ortaya çıxdı.[57] Bu hərəkəti təmsil edənlərə üsulilər, onlara qarşı olub ənənələrə bağlı qalanlara isə əxbərilər deyildi. Əxbərilərlə Üsulilər arasındakı müzakirələr XI/XVII əsrdə formalaşmağa başladı.[58] İki əsr davam edən fikir münaqişəsini nəticədə Üsulilər qazandı.

XI/XVII əsrdə müzakirələrin qızğın xarakter alması ictihadı əsas alan müctəhidlərin və üsulilərin çoxalması ilə başladı. Kuleyni və İbn Babəveyh kimi ilk dövr Şiə müəlliflərinə istinad etdiklərini söyləyən və üsulilərə bidətçi gözüylə baxan əxbərilər, ağıl və məntiqi əsas qəbul edən üsulilərin məzhəbin əsaslarını zədələdiklərini iddia edirdilər. Üsulilər də öz növbələrində əxbərilərə xurafatçı gözüylə baxırdılar. Son dövr şiə alimlərdən Muhsin Feyz. Hürr əl-Amili əxbəri idi. Məclisi də əxbərilərə qarşı deyildi. Əxbəri görüşü mənimsəyən məşhur son dövr şiə alimlərindən bəziləri bunlardır: Seyid Nemətullah Cəzairi (vəfatı: h. 1112/m. 1700), Muhəmməd

---

[53] Madelung, “Imamism and Mutazilite Theology”, *Le Shiisme Imamite* (Presses Universitaires de France), Paris 1970, s. 17; Mcdermott, *The Theology of al-Shaikh al-Mifid*, s. 12.
[54] Jassim M. Hussain, *The Occultation of the Twelfth Imam*, s. 5.
[55] Hüseyn Müdərrisi, “Rationalism and Traditionalism in Shi’i Jurisprudens: A Preliminary Survey”, *Studia Islamica*, LIX/151, 153.
[56] Madelung, “Imamism and Mutazilite Theology”, *Le Shiisme Imamite*, s. 17; Mcdermott, *The Theology of al-Shaikh al-Mifid*, s. 13.
[57] Madelung, “Imamism and Mutazilite Theology”, *Le Shiisme Imamite*, s. 21.
[58] Hüseyn Müdərrisi, “Rationalism and Traditionalism in Shi’i Jurisprudens: A Preliminary Survey”, *Studia Islamica*, LIX/155.

Təqi Məclisi (1070/1659), Molla Abdullah Tuni (1071/1660),[59] Şeyx Yusif Bəhrani (1186/1772). Ayətullah Burucirdi üsuli məktəbini ehtiyatla qarşılamışdı. Ancaq tələbəsi Xomeyni üsuliliyin müdafiəçisi idi.

Şiə əqidəsinin ən mötəbər kəlam əsərlərini yazan klassik müəlliflərin böyük əksəriyyəti üsuli məktəbinə mənsub idi. Bunlardan Şeyx Müfid (h. 413/m. 1022-23) şiə düşüncə tarixində rasionalist məktəbin təməlini qoyduğunu söyləmək mümkündür.[60] Onun tələbəsi olan Şərif Murtaza (436/1044-45) da bu ənənəni inkişaf etdirən üsuli bir alimdir.[61] İslami elmlərin demək olar ki, bütün sahələrində təqdir qazanmış əsərlər yazan Əbu Cəfər ət-Tusi (460/1967) də üsuli idi.[62] Nəsiruddin Tusi (672/1247) də öz əsərlərində fəlsəfi və kəlami mövzuları ağıl və məntiq işığında mükəmməl bir şəkildə işləyərək islam mədəniyyətini gözəl əsərlərlə zənginləşdirmişdir.[63] Əllamə Hilli (726/1325) adıyla tanınmış Cəmaləddin Əbu Mənsur Həsən ibn Yusif ibn Əli ibn Mutahhar Hilli də üsuli məktəbə öz töhfələrini verən bir alimdir.[64]

## ƏDƏBİYYAT

1. Amili, Muhsin əl-Emin, *Ayan əş-Şiə,* Dər ət-Təaruf, I-XI cild, Beyrut-1983.

2. Baranov X. K., *Arabsko-Russkiy Slovar*, Moskva 1985.

3. Bəhrani, Yusif, *əl-Hədaiq ən-Nadira fi əhkami itra ət-tahira,* Dər əl-Ədva, I-XX, Beyrut-1985.

---

[59] Hüseyn Müdərrisi, "Rationalism and Traditionalism in Shi'i Jurisprudens: A Preliminary Survey", *Studia Islamica*, LIX/145.

[60] Hüseyn Müdərrisi, "Rationalism and Traditionalism in Shi'i Jurisprudens: A Preliminary Survey", *Studia Islamica*, LIX/153.

[61] Xənsari, *Ravdatul-cənnat*, IV/301; Madelung, , "Imamism and Mutazilite Theology", *Le Shiisme Imamite*, s. 25.

[62] Xənsari, *Ravdatul-cənnat*, VI/217.

[63] Əsərləri haqqında geniş məlumat üçün bax: Strothmann, "Nasır al-Din al-Tusi", *İslam Ansiklopedisi,* XII (2)/132-133; Tehrani, *əz-Zəria ilə təsanif əş-Şia,* III/352 və davamı.

[64] Onun metodu haqqında məlumat üçün bax: Schmidtke, *The Theology of al-Allama al-Hilli*, s. 254.

4. Cəzairi, Nemətullah, *əl-Ənvar ən-Numaniyyə*, I-IV, Beyrut-1380.

5. Corbin, Henri, *Historie de la Philosophie Islamigue*, Paris 1964.

6. Cürcani, *Kitab ət-Tərifat,* Beyrut-1983.

7. Əli İbn Əbu Talib, *Nəhc əl-Bəlağa,* tərcümə edən: Əbdülbaqi Gölpınarlı, Qum-1981.

8. Əllamə Hilli*, əl-Bab əl-Hadiyə Aşər,* şərh edənlər: Miqdad əs-Seyyuri, Məxdum əl-Hüseyni, Tehran-1365.

9. Ən-Nisaburi, Fazl İbn Şazan *əl-İzah*, Tehran 1390.

10. Fəyyaz, Abdullah, *Tərix əl-İmamiyyə və Əsləfihim minəş-Şiə,* Beyrut-1975.

11. Fığlalı, Ethem Ruhi Önsöz, *Mezhepler Arasındakı Farklar* (Abdülkahir el-Bağdadi), Türkiye Diyanet Vakfı Yayınları, Ankara-2001.

12. Gölcük, Şerafeddin, *Kəlam Tarihi*, IV nəşr, İstanbul-2000.

13. Xənsari, Məhəmməd Baqır əl-Musəvi, *Ravdatul-cənnat fi əhval əl-uləma və əs-sədat*, I-VIII, Qum-1351.

14. İbn Mənzur, *Lisan əl-Arab*, I-XV, Beyrut-1994.

15. İbn Nədim, *əl-Fihrist*, Dər əl-mərifə, Beyrut-1994.

16. İmam Xomeyni, *Təvzih əl-məsail*, Tehran-1988.

17. Əl-İsfahani, Raqib, *Müfrədatu Əlfaz əl-Quran*, əd-Dər əs-Samiyyə, Beyrut-1997.

18. Jassim M. Hussain, *The Occultation of the Twelfth Imam*, Cambridge-1982.

19. Qaravi, *Masadır əl-İstinbat beynə əl-Usuliyyin vəl-əxbariyyin*, Dər əl-Hadi, Beyrut-1992.

20. Qaşani, Feyz, *İlm əl-Yəqin fi Usul əd-Din, I-II,* Qum-1400.

21. Quleyni, Məhəmməd ibn Yaqub ibn İshaq, *Usul əl-Kafi*, I-II, Dər əl-kutub əl-İslamiyyə, Tehran-1388.

22. Madelung, Wilferd, "Imamism and Mutazilite Theology", *Le Shiisme Imamite* (Presses Universitaires de France), Paris 1970, s. 13-31.

23. Mcdermott, Martin, *The Theology of al-Shaikh al-Mifid*, Beyrut-1986.

24. Mez, Adam, *İslamın Kalkınma Çağı*, tərcümə edən: Camal Körpülü, Ankara, tarixsiz.

25. Məclisi, Məhəmməd Baqır ibn Məhəmməd Təqi ibn Məqsud Əli, *Bihar əl-Ənvar,* I-CXI, Müəssəsətu əl-vəfa, Beyrut-1983.

26. Mənai, Aişə Yusif, *Usul əl-Əqidə beynə əl-Mutəzilə və əş-Şiə əl-İmamiyyə,* Qətər-1992.

27. Müdərrisi, Hüseyn, "Rationalism and Traditionalism in Shi'i Jurisprudens: A Preliminary Survey", *Studia Islamica*, Paris-1984, LIX/141-158.

28. Müzəffər, Məhəmməd Rza, *Aqaid əl-İmamiyyə*, Tehran, tarixsiz.

29. Nəcaşi, Əbu əl-Abbas Əhəd ibn Əli, *Rical ən-Nəcaşi,* təhqiq: Məhəmməd Cavad ən-Naini, Dər əl-Ədva, I-II, Beyrut-1988.

30. Nəşşar, Əli Sami, *Nəşətu əl-Fikr əl-Fəlsəfi fil-İslam*, Dər əl-məarif, I-III, Qahirə-1977.

31. Növbəxti, Əbu Məhəmməd əl-Həsən ibn Musa, *Fıraq əş-Şiə,* Nəcəf-1936.

32. Sadr, Həsən, *Təsis əş-Şiə li Ulum əl-İslam,* Beyrut-1981.

33. Schmidtke, Sabine, *The Theology of al-Allama al-Hilli*, Berlin-1991.

34. Strothmann, "Nasır al-Din al-Tusi", *İslam Ansiklopedisi,* İstanbul-1979, XII (2)/132-133.

35. Strothmann, "Şia", *İA,* İstanbul-1979, XI/502-513.

36. Sübhani, Cəfər, *Buhus fil-miləl vən-nihəl*, I-VII, Qum-1413.

37. Şeyx Müfid, *Əvail əl-Maqalat*, təhqiq: İbrahim əl-Ənsari, Dər əl-Mufid, Beyrut-1993.

38. Şeyx Saduq, *Risalətu əl-itiqadat əl-İmamiyyə (Şii İmamiyyenin İnanç Esasları)*, tərcümə edən: Ethem Ruhi Fığlalı, Ankara 1978.

39. Şərif əl-Murtaza, *Rəsail əş-Şərif əl-Murtaza,* I-III, Qum-1405.

40. Tabatabai, *əş-Şia fi'l-İslam*, Dər ət-təaruf, Beyrut, tarixsiz.

41. Tehrani, *əz-Zəria ilə təsanif əş-Şia,* XXIX cilddə XXVI cild, Dər əl-ədva, Beyrut-1983.

42. Topaloğlu, Bekir, *Kəlam Elmi (Giriş*), İstanbul-1996.

43. Tusi, Əbu Cəfər, *Fihrist,* Beyrut 1983.

44. Uyar, Məzlum *İmamiyye Şiasında Düşünce Ekolleri Ahbarilik*, Kitabevi, İstanbul -2000.

45. Zəbidi, *Tac əl-Arus*, I-XXV, Beyrut 1984.